“Azərbaycan həqiqətlərini Cənubi Koreya xalqına çatdırmağa çalışıram”

Professor Eunkyung Oh redaksiyamızın qonağıdır

Zəngin və qədim tarixə, mədəni irsə sahib olan türk xalqları bu gün dünyanın müxtəlif elmi araşdırma mərkəzləri, alimləri tərəfindən tədqiq edilir, öyrənilir. SSRİ-nin dağılmasından sonra Azərbaycanda daxil olmaqla, bir sıra türk xalqlarının müstəqilliyə qovuşması türkologiya sahəsində çalışan tədqiqatçılara yeni imkanlar açdı. Azərbaycanın tarixi, ədəbiyyatı ilə maraqlanan və tədqiqat aparan əcnəbi ziyalıların ölkəmizə marağının artması təqdirəlayiq haldır. Bugünlərdə ölkəmizdə səfərdə olmuş Cənubi Koreyanın tanınmış qadın türkoloq alimi, jurnalist, Seuldakı Dongduk Qadınlar Universitetinin professoru, Avrasiya Türk Araşdırmaları İnstitutunun direktoru, Eunkyung Ohun “Xalq qəzeti”nin qonağı olması, Azərbaycan və ümumilikdə türk xalqlarının ortaq dəyərləri ilə bağlı fikir və təəssüratlarını bölüşməsi bir daha göstərdi ki, uzaq Koreyada, Azərbaycanı nəinki qəlbən sevən, hətta onun dilini öyrənib elmi araşdırmalar aparan ziyalılar var. Onun redaksiyamıza gəlişi bizi Azərbaycan dilində salamlaması və danışması ilk anlardan aramızda doğma bir ünsiyyət yaratdı. Eunkyung Ohun uşaqlıqdan türk dünyasına, ədəbiyyatına olan marağı onu Türkiyədən tutmuş Özbəkistan, Qazaxıstan, Tatarıstan, Sibir, Altay ellərinə qədər səyahətə sövq edib. Bu səyahət və səfərlərin nəticəsi, alim kimi araşdırmaları müşahidələri onun çoxsaylı kitab və elmi tədqiqatlarında əksini tapıb. Professor Eunkyung Ohla müsahibəni oxucularımıza təqdim edirik:

– Xoş gəlmisiniz!, Sizin kimi türk dünyasını sevən, araşdıran bir alimi, qələm sahibini ölkəmizdə görmək xoşdur. Azərbaycan dilində söhbətləşmək isə ikiqat xoşdur.

– Əvvəla, təşəkkür edirəm ki, Prezident Kitabxanasının şöbə müdiri, dəyərli ziyalı Nazim Mustafa ilə birgə “Xalq qəzeti”nin kollektivi, xüsusilə də baş redaktor Həsən Həsənovla görüşdüm, türkologiya, eləcə də Koreya və Azərbaycanla bağlı bir sıra ortaq mövzulardan danışdıq, maraqlı fikir mübadiləsi apardıq. Həsən müəllimin bizim ölkəmizlə bağlı ətraflı məlumatlılığı, hələ Sovetlər dönəmində onun Azərbaycan Sovet Ensiklopediyasında, sonralar “Xalq qəzeti”ndə çalışarkən Koreya haqqında yazılan məqalələrin müəllifi olması məni çox sevindirdi.

Türkoloq alim olaraq, tədqiqatlarıma Azərbaycanda da maraq göstərilməsi məni məmnun etdi. Türk coğrafiyasına olan maraq və sevgim uşaqlıq illərindən başlayıb. Dünyanın müxtəlif ölkələri, xüsusilə də onların ədəbiyyatı ilə maraqlanırdım.Türk xalqlarına xüsusi rəğbət bəsləsəm də, həmin illər sovet dövrünə təsadüf etdiyindən məlumatlar mənim üçün əlçatan deyildi. Türklərin Koreyanın qədim tarixində önəmli rola malik olduğunu öyrəndikdən sonra türkologiya sahəsində təhsil almağa qərar verdim. Türkologiya Cənubi Koreyada az tədqiq edilmiş bir sahə idi. İstədim ki, öz ölkəmdə bu istiqamət üzrə yol açıb, araşdırmalar aparım. Odur ki, Seul şəhərindəki Hankuk Xarici Dillər Universitetinin türkologiya fakültəsinə daxil oldum. Daha sonra 1992-1999-cu illərdə Türkiyə Cümhuriyyətində Ankara Hacettepe Universitetinin türk dili və ədəbiyyatı bölümündə magistr təhsili aldım, doktoranturanı bitirdim. Türkiyədə türkologiya ilə bağlı təhsil almaqla yanaşı, həm də müəllim olaraq çalışdım. 1995-1999-cu illərdə Ankara Universitetinin Dil, tarix və coğrafiya fakültəsində Koreya dili və ədəbiyyatı fənnini tədris edirdim. Həmin illərdə (1994-1997) həm də Cənubi Koreya televiziyasının Türkiyə Cümhuriyyətində müxbiri kimi fəaliyyət göstərdim. Koreya cəmiyyəti üçün maraqlı olan mövzularda reportaj və xəbərlər hazırlayıb təqdim edirdim. Daha sonra iki il Özbəkistanda çalışdım. Orada müdafiə edib filologiya elmləri doktoru dərəcəsini aldım.

İndi isə Cənubi Koreya Dongduk Qadınlar Universitetinin professoru və həmin universitetin nəzdindəki Avrasiya Türk Araşdırmaları İnstitutunun qurucusu və yaradıcısıyam. İnstitutu qurmaqda məqsədim türk dünyası ilə bağlı elmi araşdırmaları daha da genişləndirmək, bu istiqamətdə önəmli layihələr həyata keçirməkdir. Sevinirəm ki, artıq gördüyümüz işlər öz bəhrəsini verir. Baş redaktorluğumla nəşr edilən və türkoloq alimlər arasında böyük nüfuz qazanan “The Journal of Eurasian Turkic Studies” dərgisi türkologiya ilə bağlı bir sıra mövzuların tədqiqində öncül mövqeyə sahibdir.

– Maraqlıdır, Koreya və türk xalqlarını tarixdə birləşdirən ortaq nöqtələr nədir?

– Koreya ilə türk xalqları arasında bir çox oxşar cəhətlər var. Əgər linqvistik baxımdan yanaşsaq, Koreya və türk xalqlarının dilləri Altay dil ailəsinə aiddir. Araşdırmaçıların qənaətinə görə Koreya və türk dilləri səkkiz min il əvvəl ayrılıb. Koreyalılarla Asiya hunları arasında əlaqələr geniş olub. Arxeoloji qazıntılara əsasən, tədqiqatçılarımız tariximizin bu dövrünü öyrənirlər.

Koreyada Silla dövrünə aid Altayda bəzi qədim məzarlıqlar mövcuddur. Bu məzarlıqların tədqiqi nəticəsində məlum oldu ki, Silla dövrünə aid məzarlıqlardakı qalıntılar Altay bölgəsindəki ilə oxşardır. Bir də qeyd edim ki, Silla dövründə hökmdar mənasını ifadə edən “xan” kəlməsini biz də işlətmişik. Azərbaycana gələndə öyrəndim ki, sizin ölkənizdə də xanlıqlar dövrü olub və “xan” titulunu daşıyan hökmdarlar olub. Koreya və Azərbaycan xalqlarının yaşayış tərzi, həyata baxışı və adətləri bir-birinə bənzəyir. Araşdırdıqda tarixən bir çox oxşar cəhətlərimizi də tapa bilərik.

– Koreyada türkologiya elm kimi nə vaxtdan öyrənilir?

– Türkologiya bölümü Koreyada 1973-cü ildə Hankuk Xarici Dillər Universitetində yaradılıb. Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra digər ölkələrlə yanaşı, Cənubi Koreya Respublikası ilə diplomatik münasibətlər quruldu. Həmin dövr iki ölkə arasında hərtərəfli əlaqələrə və müxtəlif istiqamətlərdə əməkdaşlığa yeni imkanlar yaratdı. Şəxsi təşəbbüsümlə 2016-cı ildə Dongduk Qızlar Universitetinin nəzdində Türkologiya Araşdırmalar İnstitutunu yaratdım. Bu institutu yaratdıqdan sonra Koreya dövləti də bizə fəaliyyətimizdə dəstək oldu. Bir sıra istiqamətlərdə araşdırmalara başlamışıq. Hazırda “Türk dünyası ensiklopediyası” on-line (elektron) üzərində işləyirik. Bu ensiklopediyada türk xalqlarının dilləri, ədəbiyyatı, folkloru, sənəti, coğrafiyası kimi sahələr əhatə olunacaq. Təbii ki, bu işi daha yaxşı görə bilməyimiz üçün türk xalqlarının elmi qurumları, ziyalıları ilə əlaqələr yaradır, müvafiq qurumlarla əməkdaşlıq protokolları imzalayırıq. Altayda, Tatarıstanda, Saxada bu cür əməkdaşlıq razılaşmaları imzalamışıq.

– Bəs Azərbaycanda hansı qurumlarla əməkdaşlıq edirsiniz?

– Azərbaycanda da bir sıra qurumlarla əməkdaşlıq sahəsində razılaşmalar əldə etmişik. AMEA Folklor İnstitutu, Nizami adına Ədəbiyyat İnstitutu, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi ilə əməkdaşlıq protokolları imzalamışıq. Keçən il Azərbaycan Yazıçılar Birliyi ilə razılaşma əldə etdik. Bu qurumun fəxri üzvüyəm. İnanıram ki, qarşılıqlı əməkdaşlıq daha faydalı işlər görməyimizə müsbət təsir edəcək.

– Azərbaycana budəfəki səfəriniz nə ilə bağlıdır?

– Bakıya budəfəki gəlişim yeni bir araşdırmam – Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlıdır. Azərbaycanın Cənubi Koreyadakı səfirliyinin müşaviri Vaqif Cəfərovla görüşümüzdə o, mənə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həyata keçirilən layihə haqqında məlumat verdi və mənim həmin layihədə iştirak etməyimi təklif etdi. Öyrəndim ki, həmin layihəni Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (Azerbaijan International Development Agency – AIDA) və ADA Universiteti birgə həyata keçirir. Məmnuniyyətlə razılıq verdim və Azərbaycan Xarici İşlər Nazirliyinin dəvəti ilə həmin layihədə iştirak etdim. Bu gün təəssüf ki, Cənubi Koreyada bu münaqişənin tarixi kökləri, səbəbləri, bir sözlə Qarabağ həqiqətləri ilə bağlı yetərli qədər məlumat yoxdur, ya da olan məlumatlar da birtərəflidir, həqiqəti əks etdirmir. Düzdür, cəmiyyətdə münaqişə ilə bağlı məlumat var, ancaq bu informasiya çox azdır. Təəssüf ki, erməni yalanlarını əks etdirən məlumatlar daha çoxdur.

Odur ki, Azərbaycan üçün önəmli və aktual olan bu münaqişə barədə tarixi aspektdə dolğun, həqiqətləri əks etdirən bir araşdırma üzərində işləyirəm. Bu araşdırma Koreya cəmiyyəti üçün münaqişə barədə dolğun məlumatları əks etdirən bir araşdırma yazısı, bəlkə də bundan sonra bu mövzu ilə maraqlanan araşdırmaçılar, jurnalistlər, tarixçilər üçün əsas mənbələrdən biri olacaq. Ona görə də budəfəki səfərim nəticəsində əldə etdiyim materiallar və məlumatlar əsasında yazacağım məqalə əhəmiyyətli olacaq. Bu işdə mənə dəstək olan Prezident Kitabxanasının kollektivinə və rəhbərliyinə, xüsusilə də mənə araşdırmamda yaxından kömək edən kitabxananın şöbə müdiri, dəyərli tədqiqatçı həmkarım Nazim Mustafaya çox təşəkkür etmək istəyirəm. Məhz onun bələdçiliyi və dəstəyi ilə kitabxananın zəngin fondu ilə yaxından tanış oldum, burada münaqişə ilə bağlı zəngin məlumat əldə etdim. Araşadırmalarım hələ davam edir. Hesab edirəm ki, Azərbaycanın tarixi keçmişini, mədəni irsini, bu gününü və eləcə də Qarabağ həqiqətlərini daha yaxından Koreyaya çatdırmaq üçün məqalələrin yazılması, kitabların tərcümə edilərək yayılması çox vacibdir. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı araşdırmalar aparmaq üçün koreyalı tədqiqatçılardan ibarət bur qrup yaratmağı və fəaliyyət göstərməyi düşünürəm. Azərbaycanlı alimlərin iştirakı ilə konfransların təşkilinin və kitabların nəşrinin fəaliyyətimizi uğurla davam etdirməyə imkan verəcəyinə inanıram.

Yeri gəlmişkən bildirim ki, təqribən bir aylıq səfərimin müddətində üzərində işlədim “Dağlıq Qarabağ münaqişəsi: tarixi və nizamlanma prosesi” mövzusunda təqdimat hazırladım. Slayd formasında hazırladığım təqdimat avqustun 23-də ADA Universitetinin tələbə-müəllim heyətinin və AİDA-nın rəhbərliyinin iştirakı ilə həmin universitetdə keçirildi. Təvazökarlıqdan uzaq olsa da, qeyd edim ki, belə bir qısa müddətdə mövzunu tamamilə əhatə etməyim, onu əyani təsvirlərlə və xəritələrlə zənginləşdirməyim tədbir iştirakçıların çox xoşuna gəldi. ADA Universitetinin prorektoru Fariz İsmayılzadə dəyərli tövsiyələri ilə yanaşı, əməyimi yüksək qiymətləndirdi. ADA Universitetinin və AİDA-nın sertifikatı ilə təltif edildim. Bütün bunlar məni Azərbaycan həqiqətlərini Cənubi Koreyada daha yüksək səviyyədə təbliğ etməyə sövq edir.

– Azərbaycan ədəbiyyatı ilə bağlı indiyə kimi hansı mövzuları işıqlandırmısınız?

– Azərbaycana olan marağım Türkmənistanda keçirilmiş tədbirlərdən birində azərbaycanlı alim və yazar Vaqif Sultanlı ilə tanışlıqdan sonra daha da artdı. Onun bir hekayəsi diqqətimi çəkdi və Koreya dilinə tərcümə etdim. 2018-ci ildə Cənubi Koreyada keçirilmiş Pyeongchang Olimpiadası ilə eyni vaxtda yazarların konfransını təşkil etdik. Azərbaycandan Vaqif bəyi də dəvət etdik. Onun çıxışı, XIX əsrdə Azərbaycan torpaqlarının, xalqınızın iki yerə bölünməsi barədə danışması iştirakçılarda, xüsusilə də jurnalistlərdə maraq oyatdı. Məhz bu çıxışdan sonra Azərbaycanı daha yaxşı öyrənmək və tanıtmağa qərar verdim. Keçən il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibəti ilə görkəmli azərbaycanlı şair Bəxtiyar Vahabzadənin “Gülüstan” poemasını Koreya dilinə tərcümə etdim. Bu əsər bu ilin sonunda Seulda işıq üzü görəcək. 1992-ci ildən bəri iyirmi altı ildən çoxdur ki, ölkələrimiz arasında diplomatik münasibətlər qurulub, müxtəlif sahələrdə uğurla əməkdaşlıq edirik. Lakin ədəbiyyat sahəsində deyərdim ki, indiyə kimi heç bir əsər tərcümə edilməyib. Odur ki, bizim səfirliyimizin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatından “Gülüstan” poemasını tərcümə etməyi qərara aldım. Bu əsəri seçməyim təsadüfi deyil. Çünki məhz “Gülüstan” poemasında əks olunan mövzu ikiyə bölünmüş Koreya xalqı üçün yad deyil. Müəllifin yaşantı və həsrətini yaxşı başa düşürük. Bu səbəbdən hesab edirəm ki, əsər Koreya oxucuları üçün maraqlı olacaq.

Tərcümə işi olduqca məsuliyyətli olmaqla yanaşı, həm də çətin sahədir. Odur ki, Azərbaycan dilini daha yaxşı öyrənmək üçün keçən il Bakıya gəldim. Türkiyə türkcəsini bilməyim mənə Azərbaycan dilini daha tez öyrənməyimə kömək etdi. Azərbaycan türkcəsinin Türkiyə türkcəsindən fərqli cəhətlərini öyrəndim. Sağ olsun, buradakı müəllimlər, eləcə də bizim institutumuzda işləyən azərbaycanlı əməkdaşlarımız tərcümə prosesində dəstək oldular. Gələcəkdə “Koreya-Azərbaycan dili lüğəti”nin nəşrini vacib hesab edirəm. Düzdür, indiyədək bir sözlük dərc edilib, ancaq bu, kifayət deyil. Ümumiyyətlə, Koreya və Azərbaycanın qarşılıqlı olaraq daha yaxından tanıdılması, əhəmiyyətli layihələrin həyata keçirilməsi üçün də ciddi maliyyə dəstəyi və təşəbbüskarlıq da mühüm rol oynayır. Türkoloji Araşdırmalar İnstitutunda hər ay müntəzəm olaraq, konfranslar təşkil edirik, çıxış üçün türk dünyası ilə bağlı alimləri dəvət edirik. Məhz bu konfranslar nəticəsində cəmiyyətdə türk dünyasına, türkologiyaya marağın daha da artdığını gördük. Hesab edirəm ki, Azərbaycanla bağlı fəaliyyətimizin daha da artırılması ölkənizi Koreyaya daha yaxından tanıtmaqda mühüm rol oynayacaq.

– Türkiyədə oxumağınız sizin tərcüməçi və jurnalist kimi fəaliyyətinizə necə təsir etdi?

– Ankarada təhsil aldığım illərdə Türkiyədə koreyalı çox az idi. Düzdür, Türkiyədə Koreyanı tanıyırdılar. Ancaq çoxları Koreya savaşı fonunda tanıyırdılar ölkəni. Hamı bilirdi ki, Türkiyə Koreya savaşında əsgər göndərib. Türkiyədə qaldığım illərdə oxuduğum universitetdə Koreya dili və ədəbiyyatı bölməsi açıldı və orada dərs deməyə başladım. Daha sonra Koreyada “MBC" kanalının Türkiyə üzrə müxbiri kimi fəaliyyət göstərdim. Canlı yayımda telefon vasitəsilə Türkiyədə baş verən ən önəmli xəbərləri çatdırırdım. Koreya teleradio məkanında Türkiyəni tanıdan ilk müxbir mənəm. O zamanlar Koreya daha çox Avropa ölkələrinə və Amerikaya müxbir göndərirdi. Türkiyədə isə belə müxbirlər yox idi. Türkiyədə doktorantura təhsilimi başa vurandan sonra ölkəmə qayıtdım. Bir çoxları deyirdi ki, sən iş tapa bilməyəcəksən. Məsləhət edirdilər ki, ingilis ədəbiyyatı üzrə doktoranturada oxu. Bu cür çətinliklər və məqamlar olsa da, bu gün sevdiyim işlə, yenə də türkologiya sahəsi ilə məşğulam. “Türk ədəbiyyatında Koreya savaşı” və “XX yüzil Türkiyə və Koreya romanında qadın” əsərlərim Türkiyədə çap olunub. Türkiyə ədəbiyyatından bir sıra əsərlər tərcümə etmişəm.

Türkologiya məsələləri ilə bağlı indiyədək 150-dən artıq araşdırmam işıq üzü görüb. “Alpamış” və başqa dastanlarla bağlı monoqrafiyam, türkologiya ilə bağlı 25-dən artıq kitabım var. Bir sözlə, türk dünyası ədəbiyyatı, mədəni irsi zəngin bir xəzinədir. Çünki türk toplumu dünya tarixində mühüm yeri olan bir toplumdur. Türk toplumu tarixini öyrənmək üçün Çin mənbələrinə daha çox müraciət etməyimiz lazımdır. Çünki türklər tarix yaratsalar da, yazılı mənbələrə o qədər də önəm verməmişlər.

– Siz həm də Türkiyə və Cənubi Koreya prezidentlərinin görüşündə tərcüməçi olmusunuz. İstərdim, bu barədə də danışasınız.

– Bəli, elədir (gülümsünür). Tale elə gətirib ki, Türkiyə türkcəsini bildiyimdən bır sıra məqamlarda bu cür vacib görüşlərdə mənə tərcüməçilik etmək təklif olunub. Məmnuniyyətlə qəbul etmişəm. Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan Cənubi Koreyaya zirvə toplantısına səfəri zamanı Seuldakı Türkiyə səfirliyi məni tərcüməçi kimi dəvət etdi. Düzdür, Koreyada türkcəni bilən tərcüməçilər var, ancaq azdır. Mən elm adamıyam, ancaq zəruri olduqda, konfrans və bu cür görüşlərdə tərcüməçilik etmişdim. Odur ki, prezidentlərin görüşündə də mən tərcüməçilik etdim. Türkiyədə olsa da, gözəl idi. Çox xoşuma gəldi o yerlər. İnsanları gülərüz və mehriban idi. Sonra Çıldır gölünə getdik. Maraqlıdır ki, oranın insanları Azərbaycan türkcəsinə oxşar şivə ilə danışırdılar. Bunu Azərbaycanla tanışlıqdan sonra bildim. Oxşarlıqlar çoxdur. Bu il Koreya televiziyasında çalışan jurnalistlər mənim təşəbbüsümlə Bakıya gələrək Azərbaycanla bağlı veriliş hazırladılar. Verilişin sentyabr ayında yayımlanması planlaşdırılır. İstəyirəm ki, Azərbaycanın gözəlliklərini, zəngin mədəniyyətini, tarixini Koreyada hər kəs tanısın.

ADA AIDA

Certificate of Attendance

This is to certify that

Ms. Oh Eunkyung

has successfully completed Visiting Research Fellowship Program, jointly organized by ADA University and Azerbaijan International Development Agency (AIDA)

July-August,2019
ADA University

Mr. Fariz İsmayılzadə
Executive Vice Rector
ADA University

Mr. Seymur Fataliyev
Director
Azerbaijan International Development Agency (AIDA)

– Professoru olduğunuz Dongduk Universitetində yalnız qızlar oxuyurlar, XX əsrin əvvəllərində xeyriyyəçi-mesenat Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü ilə Bakıda da qız məktəbi yaradılmışdı. Görünür, qızların təhsilinə önəm verilməsinin müəyyən səbəbləri olub.

– Bir zamanlar ölkəmizdə Cosun xanədanlığı zəifləməyə başladı, cəmiyyətdə vəziyyət ağırlaşdı. Hətta ölkə Yaponiyanın təsirinə düşmək təhlükəsi ilə üzbəüz idi. O dövrdə bizim vətənsevər ziyalılarımız çıxış yolunu gələcək nəslin maarifləndirilməsində, məktəblər açmaqda görmüşlər. Qərara alınıb ki, qızların oxuması cəmiyyətin maariflənməsi üçün önəmlidir. “Gələcəyimiz qadınların əlindədir” - deyən ziyalılarımız yüz oğlanı oxutmaq əvəzinə bir qızı oxutmağın daha faydalı olduğunu düşünüblər. Çünki qadın savadlı olarsa, onun yetişdirəcəyi uşaqlar da savadlı olar. Koreya toplumu mühafizəkardır, milli-mənəvi dəyərlərə önəm verir. Əvvəllər valideynlər qız övladlarını təhsil dalınca xarici ölkələrə göndərməkdə maraqlı deyildilər. Odur ki, qızlar üçün ayrıca belə ali məktəb yaradılmışdı. Dongduk Universitetinin açılmasından sonra bu ənənə davam etdi. Hazırda Seulda beş belə qız universiteti var. Dongduk Universitetinin isə yaşı 100-ü keçdi. Valideynlər qızlarının həmin universitetlərdə oxumalarına daha həvəslə yanaşırlar.

– Müasir dövrdə dünyada baş verən olayları izləmək və xəbərdar olmaq üçün media mühüm vasitədir. Sizin fikrinizcə, türk coğrafiyasında baş verən mühüm ictimai, sosial və mədəni olayları, eləcə də türk xalqlarını narahat edən məsələləri obyektiv araşdırmaq üçün türk dünyası mediasının üzərinə hansı vəzifələr düşür?

– Əlbəttə, medianın gücü böyükdür. Türk dünyasının tanıtımında jurnalistlərimiz daha da fəal olmaqla, maraqlı layihələr həyata keçirərək, xalqlar arasında mədəni və dostluq əlaqələrini daha da gücləndirə bilərlər. Türk insanının səsini dünyaya çatdıra bilərlər. Bu gün Türkiyə türkcəsi türkdilli ölkə və toplumlarında daha çox yayılıb. Mən səfərlərimdə də bunu görürəm. Əlbəttə, bu yaxşıdır. Ancaq istərdim ki, türk dünyasında digər türkcələr də geniş öyrənilsin və istifadə edilsin. Ortaq agentliyin olması, eləcə də türk toplumlarını əhatə edən müxbir postlarının təşkili xəbər mübadiləsində, türk dünyasında baş verən hadisələrin obyektiv işıqlandırılmasında faydalı olar. Belə olarsa, Qərb mediasına istinad azalar, daha obyektiv məlumatlar işıqlandırılar. Vaxtilə Türkiyədə olarkən qarış-qarış gəzərək onun az tanınan bölgələrində çəkilişlər etdik, Qarsda, İğdırda olduq. Yadımdadır, Qarsa gedəndə qış idi, çox soyuq olsa da, gözəl idi. Çox xoşuma gəldi o yerlər. İnsanları gülərüz və mehriban idi. Sonra Çıldır gölünə getdik. Maraqlıdır ki, oranın insanları Azərbaycan türkcəsinə oxşar şivə ilə danışırdılar. Bunu Azərbaycanla tanışlıqdan sonra bildim. Oxşarlıqlar çoxdur. Bu il Koreya televiziyasında çalışan jurnalistlər mənim təşəbbüsümlə Bakıya gələrək Azərbaycanla bağlı veriliş hazırladılar. Verilişin sentyabr ayında yayımlanması planlaşdırılır. İstəyirəm ki, Azərbaycanın gözəlliklərini, zəngin mədəniyyətini, tarixini Koreyada hər kəs tanısın.

– Sizi Azərbaycanda yenidən görməkdən şad olardıq.

– Azərbaycanı, paytaxtınızı, onun xeyirxah insanlarını sevdim. Fürsətdən istifadə edib Gəncə şəhərində bir konfransda iştirak etdim. Şəki şəhərini, qədim Qəbələni görmək istəyirdim. Lakin işimin çoxluğundan vaxt tapıb gedə bilmədim. Vaxt tapıb mənimlə görüşdüyünə görə baş redaktorunuz Həsən müəllimə və qəzetinizin bütün kollektivinə təşəkkür edirəm.

Bilirəm ki, avqustun 29-da “Xalq qəzeti” 100 illik yubileyini qeyd etdi. Mən də kollektivinizi və oxucularınızı ürəkdən təbrik edirəm. Hər ili uğurlarla başa vurasınız!

Sonda bir arzumu ifadə etmək istəyirəm. İstərdim ki, Cənubi Koreya və Azərbaycan arasında diplomatik, ictimai-siyasi və mədəni, iqtisadi əlaqələr bundan sonra da inkişaf etsin, əməkdaşlığımız güclənsin. Bu inkişaf hər iki xalq arasında dostluq və qarşılıqlı əlaqələrə öz müsbət təsirini göstərsin. Ümid edirəm ki, növbəti səfərimdə öz araşdırma və fəaliyyətimlə Azərbaycan oxucusunu sevindirəcəyəm.

Əfsanə BAYRAMQIZI,
Elşən AĞALAR (foto),
“Xalq qəzeti”